### 20 Yanvar–Anım Günü münasibətilə

# Şəhidlərin xatirəsi yad edildi

17 yanvar 2022-ci il tarixdə Qəbələ Mədəniyyət Mərkəzində "20 yanvar- Anım günü" münasi-



bətilə keçirilən tədbirdə mədəniyyət mərkəzinin, Qəbələ Dövlət Rəsm Qalareyasının əməkdaşları iştirak etmişlər. Öncə torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Mədəniyyət Mərkəzinin direktoru Malik Ağayev 20 Yanvar gününün Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi olduğunu qeyd edərək, 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə keçmiş SSRİ rəhbərliyinin göstərişi ilə sovet hərbi birləşmələrinin ağır silahlı texnika ilə Azərbaycana daxil olaraq dinc əhaliyə qarşı dəhşətli qətliam həyata keçirilməsindən bəhs etmişdir. Tədbirdə çıxış edənlər 20 Yanvar gününün Azərbaycan tarixində təkcə faciə günü deyil, həm də Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü olduğu, bu tarixin uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsinin ucaldığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarix olduğunu vurğulamış, bu günün Azərbaycan tarixindəki rolundan danışmışlar. Sonda "20 yanvar-Anım günü"nə həsr edilmiş videoçarx nümayiş etdirilmişdir.

# Xatirə turniri

17-18 yanvar 2022-ci il tarixlərində Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbi "20 yanvar Ümumxalq Hüzn günü" münasibətilə idmanın stolüstü tennis növü üzrə məktəblilər arasında rayon birinciliyi yarışları keçirmişdir.



Tədbirin açılışında şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilmişdir. Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktoru Ədalət Əliyev çıxış etmiş, 20 yanvar faciəsi ilə bağlı məlumat vermişdir.

Tədbirdə həmçinin Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəis müavini Müşfiq Abbasov da şagirdlərə öz ürək sözlərini bildirmiş, uğurlar diləmişdir.

Yarışda I yeri Amil Tağıyev, II yeri Ömər Xurşudov , III yeri Həsrət Xurşudov tutmuşdur. Qaliblər və fəallar Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin və Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunmuşdur.

**Nərmin RİZVANOVA,**
**Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktor müavini.**

# 2022-ci ildə ilk uğurlar

Qəbələ idmançıları 2022-ci ildə ilk uğurlarını əldə ediblər. Belə ki, cüdo idman növü üzrə 13-16 yanvar 2022-ci il tarixində Bakı şəhərində yeniyetmələr arasında keçirilən Azərbaycan birinciliyində "Qəbələ" İdman Klubunun yetirməsi Cabbarov Tamerlan Elşən oğlu qızıl medal qazanaraq çempion olmuşdur.

Bundan əlavə sambo idman növü üzrə 14-16 yanvar 2022-ci il tarixində yeniyetmələr, gənclər və kişilər arasında keçirilən ölkə birinciliyi və çempionatında Məmmədzadə Qismət Seymur oğlu, İsayev İbrahim Günəş oğlu və Beşirov Murad Elşən oğlu fəxri kürsüdə III yeri tutaraq bürünc medal qazanmışlar.

Bütün idmançılarımıza daha böyük qələbələr, rayonun idman şərəfini daha yüksəklərə ucaltmağı arzulayırıq.

QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2022-ci ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.
Yarımillik abunə qiyməti 15 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# Şeir müsabiqəsi

Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı və Təhsil şöbəsinin iştirakı ilə 19 yanvar 2022-ci il tarixində Qəbələ rayon Təhsil şöbəsinin akt zalında "20 yanvar Ümumxalq Hüzn günü-



nün otuz ikinci ildönümü"nə həsr edilmiş yeniyetmə və gənclər arasında "Şəhidlik ölməzlik, qəhrəmanlıq zirvəsidir" mövzusunda şeir müsabiqəsi keçirilmişdir. Müsabiqənin keçirilməsində məqsəd Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş qanlı yanvar faciəsində şəhid olanların tarixə qəhrəmanlıq salnaməsi yazdıqlarını, onların xatirəsinin yaddaşlardan heç vaxt silinməyəcəyini və şəhidliyin müqəddəs bir zirvə olduğunu ictimaiyyətə çatdırmaq, həmçinin yeniyetmə və gənclərin bədii yaradıcılıq potensialını inkişaf etdirməkdən ibarətdir.

Müsabiqənin açılış mərasimində ilk öncə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov tədbirin məqsəd və vəzifələri barədə çıxış edərək, "20 yanvar faciəsi"nin baş vermə səbəbləri, faktlar və həqiqətlər barədə danışmış, bu faciəni doğuran o vaxtkı ictimai-siyasi hadisələr barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Müsabiqədə rayonun müxtəlif məktəblərindən olan 20-dən artıq şagird iştirak etmişdir. Onlar torpaqlarımız uğrunda canlarından keçmiş şəhidlərimizə, milli qəhrəmanlarımıza və vətənpərvərlik mövzusuna həsr olunmuş şeirlər səsləndirmişlər. Müsabiqənin əsasnaməsinə uyğun olaraq 1 nəfər I yer, 2 nəfər II yer, 3 nəfər III yerə layiq görülmüşdür.

Müsabiqənin yekun nəticəsinə əsasən Əmrah Əzizov I yerə, Rəsul Qasımov və Azərin Muradxan II yerə, Aylin Həmidova, İnci Zakirli və Aqşin Xəlilli III yerə layiq görülmüşdür.

Qaliblər Gənclər və İdman İdarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz AĞAYEV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**

# Gömrük işçiləri günü

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən az sonra - 1992-ci il yanvarın 29-da müstəqil gömrük sisteminin əsası qoyuldu.

Gömrük dövlət xəzinəsini gəlirlə təmin edən ən mühüm dövlət atributlarından biridir. Gömrük sistemi həm də ölkəyə qeyri-qanuni yolla müxtəlif malların gətirilməsinin, habelə ölkənin ən mühüm strateji sərvətlərinin aparılmasının qarşısını alır.

Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir. Tarix boyu mövcud olmuş bütün Azərbaycan dövlətlərində gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərmişlər. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur. Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında ilk gömrük postları yaradılmışdı.

Azərbaycan hökuməti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqustun 10-da qəbul etmişdi.

Azərbaycan parlamentinin 1918-ci il 18 avqust tarixli qanununa əsasən, qaçaqmalçılıqla mübarizə, ölkənin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdı və burada 992 gömrük işçisi keşik çəkirdi.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə 29 yanvar gömrük işçilərinin peşə bayramı günü elan olunmuşdur.

## İTMİŞDİR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ şəhər sakini **Əhmədov Əfqan Muxtəsər oğluna** məxsus torpaq sahəsinə aid MA № 0220847 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ şəhər sakini **Mustafayev Şahin Dünyamir oğluna** məxsus torpaq sahəsinə aid RX № 1372756 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Bum qəsəbə sakini **Hüseyncanov Bahadur Bəkir oğluna** məxsus 1989-cu il buraxılışlı 36 BD 483 nömrəli ZİL markalı yük maşınının **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1380*